# Bayram kimi festival

## Azər Paşa Nemətov: “Bu tip festivallara ev sahibliyi etməklə həm də Azərbaycan mədəniyyətinə xidmət etməyə çalışırıq”



**İsti yay günləri. Dəniz kənarında bir şəhər və teatr festivalı. Təsəvvür edin ki, burada mənəvi istirahət üçün hər bir şərait var. Qalır, bu şəraitdən, daha doğrusu, o istirahətdən zövq almaq. Biz də bu istirahəti dəyərləndirənlərdən olduq. Belə ki, 1-5 iyun tarixlərində I Lənkəran Beynəlxalq Teatr Festivalı baş tutdu. Mədəniyyət Nazirliyi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə keçirilən festivalın son günündə yerli və xarici iştirakçıların təəssüratlarını xəbər aldıq. Onlar teatr festivalının bir bayram olduğunu və bu bayramdan zövq aldıqlarını bildirdilər.**



### "FESTİVALIN KEÇİRİLMƏSİ ÖZÜ BİR HADİSƏDİR"

**Teatr Xadimləri İttifaqının sədri, Akademik Milli Dram Teatrının bədii rəhbəri və direktoru, xalq artisti, professor Azər Paşa Nemətov** festivalın bir bayram olmasından və bu bayramda iştirakın nə qədər vacibliyindən danışdı: ”Bizim bura toplanmağımızın əsas səbəbi I Lənkəran Beynəlxalq Teatr Festivalıdır. Lənkəran Teatrı mənim üçün ona görə doğma bir məkandır ki, gənclik illərimdə bu teatrda tamaşa hazırlamışam. Prezidentimizin teatrların inkişafı ilə bağlı verdiyi sərəncama əsasən, Azərbaycanda mövcud olan teatrların əksəriyyəti təmir olundu, aktyor və rejissorlar üçün əlverişli şərait yaradıldı. Teatrlarımızın yaradıcı prosesə məşğul olması üçün hər bir imkan var. Və bu gün beynəlxalq festivallar təşkil edəndə, teatr binalarımıza, texniki imkanlarımıza baxanda utanmırıq. Əksinə, əlverişli şəraitimizlə fəxr edirik. İstər paytaxtda, istər bölgələrimizdə müasir standartlara cavab verən teatr binalarımız var. Hesab edirəm ki, biz rahatlıqla Lənkəranda teatr festivalı kimi bir çox festivallara ev sahibliyi edə bilərik. Bu festivalın keçirilməsi özü bir hadisədir. Bu hadisə münasibəti ilə Lənkəran sakinlərini, teatrsevərləri təbrik edirəm. Ola bilər ki, Lənkəran sakinləri Bakıya, eləcə də digər bölgələrə gedib onların teatrlarında nümayiş olunan tamaşalara baxa bilməsinlər. Yaxud da xaricə gedib tamaşaları izləmək imkanları olmur. Bu festival nəticəsində onlara imkan yaradılır ki, paytaxt və xarici teatrların hazırladıqları tamaşaları izləsinlər. Bu teatrlar özləri Lənkəran tamaşaçılarının ayağına gəlib, təmasda olur. Bunun ümumi mədəniyyətimiz, mədəni inkişafımız üçün mahiyyəti böyükdür. Teatr Xadimlər İttifaqı olaraq Mədəniyyət Nazirliyi ilə birlikdə belə festivalların keçirilməsini müsbət qarşılayır, bunun üçün dəstəyimizi əsirgəmirik. Bu tip festivallara ev sahibliyi etməklə həm də Azərbaycan mədəniyyətinə xidmət etməyə çalışırıq”.

### LƏNKƏRAN TEATRI ÜÇÜN İMTAHAN, LƏNKƏRANLILAR ÜÇÜN TEATR BAYRAMI

**Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov** bizimlə söhbətində teatrın ikinci dəfə belə mötəbər bir festivala ev sahibliyi etdiyini dedi: ”I Beynəlxalq Teatr Festivalı struktur baxımdan fərqlənir. Burda paytaxtdan, bölgələrdən, eyni zamanda xarici teatrlar da iştirak edir. Belə ki, festivalda Böyük Britaniyanın ”Two Destination Language” Teatrı, Gürcüstanın ”Azadlıq” Teatrı, İranın ”Muğan Hünər” və ”Mika” teatrları, habelə ”Ünvan” Ərdəbil şəhər teatrının kollektivləri də iştirak edirdilər. Bu da bizi böyük bir məsuliyyətə cəlb edir. Xaricdən təşrif buyuran qonaqların rahatlığının təmin olunması, yaradıcılıq imkanlarının nümayişi üçün uyğun şəraiti yaratmaq məsuliyyətimizi daha da artırır. Teatrımızın kollektivi tərəfindən həm yaradıcı, həm də texniki məsələr həll olunur. Qonaqların qarşılanması, gözəl xidmət görmələri üçün yaxşı atmosfer yaratmışıq. Biz üzərimizə düşən vəzifənin öhdəsindən gəlməyə hazır idik”.

T.Heydərov əlavə etdi ki, festivalın Lənkəran şəhərinin tanınması cəhətdən də müstəsna rolu var: ”Belə festivalların Lənkəranda keçirilməsi bizim üçün çox önəmlidir. Bu, tarixi, təbiəti, mədəniyyəti ilə seçilən Lənkəranın tanınmasında müstəsna rol oynayır. Təbii ki, biz beynəlxalq layihələrə hər zaman hazırıq. Bu festival nəticəsində həm Lənkəran turistik bir bölgə kimi tanınacaq, həm də Lənkəran Teatrının adı sərhədləri aşacaq. Məhz bu festival paytaxt, bölgə sakinlərinə, eləcə də xarici vətəndaşlara Lənkəranla tanış olmaq üçün hər bir imkan yaradır. Festival imkan verir ki, onlar Lənkəranın iqtisadi, siyasi potensialını görə bilsinlər. Festival çərçivəsində Lənkərana gələn truppalarla, bədii şuralarının üzvləri, kollektivlərlə görüşlər keçirdik, onlarla müəyyən təcrübə mübadilələri apardıq. Bu da bizim gələcək işimizin inkişafında müstəsna şəkildə rol oynadı. Son olaraq isə qeyd edim ki, I Lənkəran Beynəlxalq Teatr Festivalı Lənkəran Teatrı üçün bir imtahan, lənkəranlılar üçün teatr bayramı idi”.

### "MÜXTƏLİF TEATRLAR BİR AMAL UĞRUNDA YIĞIŞDILAR"

**Lənkəran Dövlət Dram Teatrının baş rejissoru, əməkdar incəsənət xadimi Oruc Qurbanov** isə deyir ki, bu festival teatr cameəsini bir araya toplamaq üçün vasitədir: ”Lənkəranda keçirilən bu festivalda teatrlarımız bir çətir altında toplaşdı. Onlarla fikirlərimizi bölüşdük, diskussiyalar etdik, maraqlı müzakirələrimiz oldu. Burada ən çox qazanan isə uşaqlar oldu. Belə ki, nümayiş olunan tamaşaların əsas izləyiciləri olan uşaqlar böyük maraqla tamaşaları izlədilər. Əslində uşaqları bir saat nəyəsə baxmağa məcbur etmək bir qədər çətin olur. O qədər maraqlı bir şey göstərməlisən ki, onların diqqətini cəlb etsin. Bu festival çərçivəsində mən uşaqlarda bu marağı hiss etdim. Bu festival çərçivəsində müxtəlif teatrlar bir amal uğrunda yığışdılar. Doğma teatrımızın səhnəsindən repertuarda olan tamaşaları izlədim və bu mənim özümə böyük ruh yüksəkliyi verdi. Mənə yaratmaq, işləmək həvəsi gətirdi. Burada xarici teatrların iştirakı bizi bir az da ruhlandırdı. Əlbəttə ki, biz də onlara baxıb nələrisə öyrəndik, nələrisə bəyəndik, nələrdənsə razı qalmadıq. Əsas odur ki, hamı tamaşaları izləyir, əylənir, başqa bir mühitə düşürük”.



### "BİZLƏRİ SƏNƏT YAXINLAŞDIRDI"

**Gəncə Dövlət Kukla Teatrının direktoru, əməkdar artist Fərmail Paşayev** festivalın uşaqların yaddaşında böyük izlər buraxdığını qeyd etdi: ”Belə festivalların tez-tez keçirilməsi ölkədə fəaliyyət göstərən teatrların bir-birilərini yaxından tanıması üçün böyük əhəmiyyət kəsb edir. Bir dəfə Türkiyədə festivalların birində iştirak edəndə, teatrda ailə bayramı keçirilməsinin şahidi oldum. Belə ki, teatrda çalışan işçilər bir gün təyin edib, öz xanımları, bəyləri, uşaqları ilə ailə bayramına təşrif buyurmuşdular. Teatrda çalışan insanların ailəvi olaraq bir-birini yaxından tanımaları üçün belə bir şənlik keçirirdilər. Deməyim odur ki, teatrlar da bir ailədir. Festivalları isə, o ailələri bir araya toplayan bir ailəyə bənzədirəm. Belə ki, teatrlarımızın aktyorları Lənkəran Teatrında, eləcə də festivalda iştirak edən digər aktyorlarla fikir mübadilələri apardılar, dərdlərini bölüşdülər. Hesab edirəm ki, belə festivallar çox olsa, Azərbaycan teatrları bir-birinə daha yaxın olar, yaradıcılıq mübadilələri baş tutar. Bu, bəzəkli söz deyil. Akademik Milli Dram Teatrı, Lənkəran Teatrı, ingilis teatrı elə doğmalaşdılar, sanki illərdi bir-birilərini tanıyırdılar. Onları sənət yaxınlaşdırırdı”.

### "ELƏ BİLİRİK Kİ, DOĞMA TORPAĞIMIZDAYIQ"

**İran İslam Respublikasının ”Mika” (Təbriz) teatrının müğənnilər qrupunun rəhbəri Əli Məmmədzadə** bizimlə təəssüratlarını bölüşdü. Bildirdi ki, bu festivalda iştirak etməkdən məmnunluq hissi keçirirlər: ”Biz sizinlə eyni mədəniyyətə, eyni dinə sahibik. Festival da onları nümayiş etdirmək üçün bir vasitədir. Artıq 3-cü dəfədir ki Azərbaycanda festivalda iştirak edirik. 12 il bundan qabaq ”Ənəl-həqqin boğulan səsi”, o biri il Lənkəran Teatrında ”Canavar” tamaşaları ilə çıxış etdik. Bu festivallar bizi bir-birimizə yaxınlaşdırır. Teatrın təşkilatçıları hər şeyi gözəl hazırlayıb. Bizim rahatlığımız yüksək səviyyədə təmin edilib. Bu qədər insan gəlir, onları izləmək şansı əldə edirik. Bütün bunlar bizi həm də inkişaf etdirir. Lənkəran bizim üçün doğma məkandır. Burda olduğumuz üçün çox məmnunuq. Biz onlardan enerji alırıq. Elə bilirik ki, doğma torpağımızdayıq”.

### LƏNKƏRAN LİMONU, SAMOVAR ÇAYI

**Böyük Britaniyanın ”Two Destination Language” Teatrının Şarlot Vinsentin əsəri əsasında hazırlanmış ”Near Gone” tamaşası ilə çıxış edən aktyorları Katerina Radeva və Alister Louninin** də fikirlərini öyrəndik. Onlar deyir ki, bu günə qədər bir çox ölkələrə gedib, festivallarda iştirak ediblər. Lənkəranı isə məxsusi seviblər. Günün birinci yarısında tamaşaları izləyib, ikinci yarısında şəhəri gəziblər. Xüsusən də Lənkəran limonu, samovar çayının dadını uzun müddət unutmayacaqlar. Repertuarda olan tamaşaları izlədiklərini və hər birinin özünməxsus olduğunu bildirdilər. Sonda isə lənkəranlıları çox sevdiklərini dedilər.

**Xəyalə Rəis**

